**Hüquq məsləhətxanamız**

Samirə Musayeva
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

**Əmək müqavilələri**

*Operativ nəzarət zamanı əmək müqavilələri yoxlanılarkən hansı cəzalar tətbiq edilir? Əmək müqaviləsiz çalışan işçilər hansı hüquqlardan məhrum olurlar?*

Vergi Məcəlləsinin (VM) 50.1.7-ci maddəsində operativ vergi nəzarətinin əhatə etdiyi məsələlər sırasında Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar olunması nəzərdə tutulmuşdur.

VM-in 58.10-cu maddəsinə əsasən, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

VM-in 50.6-cı maddəsində qeyd edilmişdir ki, operativ vergi nəzarətinin nəticələri üzrə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının (Vergilər Nazirliyi) müəyyən etdiyi formada akt tərtib edilir. Operativ vergi nəzarətinin nəticələrinin rəsmiləşdirilməsi və operativ vergi nəzarətinin materiallarına baxılması Vergi Məcəlləsinin 39-cu və 49-cu maddələri ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Bundan əlavə, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxsin hər hansı işin (xidmətin) yerinə yetirilməsinə cəlb edilməsinə görə vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilir.

Əmək Məcəlləsinin tələblərinə əsasən, əmək müqaviləsi üzrə çalışan işçilər:

· həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən əmək şəraitində çalışmaq və belə şəraitin yaradılmasını tələb etmək;

· mənzil şəraitinin və ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə işəgötürəndən müvafiq sosial yardımlar almaq;

· qanunvericiliklə müəyyən olunmuş iş vaxtında çalışmaq və həftələrarası istirahət günlərindən istifadə etmək;

· qanunvericiliklə müəyyən olunmuş məzuniyyət hüququndan istifadə etmək;

· əmək funksiyasının yerinə yetirilməsi zamanı əmlakına və səhhətinə dəyən ziyanın ödənilməsini tələb etmək;

· işəgötürən tərəfindən məcburi sosial sığorta və icbari sığorta olunmaq;

· sosial müdafiə üzrə müavinətlərdən və güzəştlərdən istifadə etmək;

· qanunvericiliklə müəyyən olunmuş qaydada əmək pensiyasına çıxmaq və aylıq ödənişlər almaq və s. hüquqlara malikdirlər.

Göründüyü kimi, əmək müqaviləsi üzrə çalışan işçilər üçün qanunvericilikdə kifayət qədər geniş hüquqlar nəzərdə tutulmuşdur, lakin əmək müqaviləsi olmadan çalışan işçilər həmin hüquqlardan məhrum olurlar.